# "Ruhun həsrəti"



Müasir hərb tariximizin şanlı səhifələrindən olan 2016-cı ilin Aprel döyüşlərinin qəhrəmanı - şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı Sevinc xanımın titrək səsi və nisgilli xatirələri hər kəsdə kövrək duyğular oyadır. Munis bir sevginin təsirli ifadəsini igid kəşfiyyatçını hərbçi və vətəndaş, dost və sirdaş kimi yaxından tanıyan müxtəlif insanların söhbətləri əvəz edir. Ancaq onlar da özlərini nə qədər toxtaq tutmağa çalışsalar da, bu, bəzən mümkün olmur. Şərəfli zabit ömrü yaşayan və canını Vətən uğrunda qurban verən Raquf Orucovun döyüş və qəhrəmanlıq yolu, torpağa sədaqəti onu tanıyan hər kəsin qəlbini iftixar hissi ilə doldursa da, itkisi ürəkləri göynədir...

AZƏRTAC xəbər verir ki, Aprel döyüşlərində böyük şücaətlər göstərmiş Raquf Orucova həsr olunmuş "Ruhun həsrəti" filminin Beynəlxalq Mətbuat Mərkəzində keçirilən təqdimat mərasimi məhz belə məqamları ilə yadda qalıb.

Filmdə şəhid kəşfiyyat komandirinin həyat yoldaşı, ailə üzvləri, döyüş yoldaşları, həmkəndliləri və tanınmış ziyalıların xatirələri əks olunub, kadrlar bir-birini əvəz etdikcə onun keçdiyi həyat və döyüş yolu ilə bağlı səhnələr, epizodlar, xatirələr göz önündə canlanıb.

Təqdimat mərasimini açan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov yeni ekran əsərinin "Bitməyən müharibənin qəhrəmanları" silsiləsindən növbəti film olduğunu bildirib, "Murov qartalı" kimi tanınan kəşfiyyatçı Raquf Orucovun mübariz və qorxmaz keyfiyyətləri barədə danışıb.

Filmin nümayişindən sonra çıxış edən Milli Məclisin deputatı, akademik Gövhər Baxşəliyeva Vətəni canından artıq sevən qəhrəmanın xatirəsinin hər cür hörmət və ehtirama layiq olduğunu bildirib, ibrətamiz ömür yolunu gənc nəsil üçün əsl örnək hesab etdiyini söyləyib.

"Kaspi" qəzetinin təsisçisi, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva qeyd edib ki, gənc nəsil Vətən uğrunda canlarından keçən qəhrəmanları, o cümlədən Raquf Orucovu yaxından tanımalıdır. Təqdimatı keçirilən film bu baxımdan xüsusi önəmə malikdir.

Milli Məclisin deputatları Sona Əliyeva və Aqil Abbas Aprel döyüşlərinin Azərbaycan Ordusunun öz torpağını düşmən tapdağı altında qoymayacağını sübut etdiyini bildirib, Raquf Orucov kimi oğullarımızın qəhrəmanlığının bu inam hissini daha da gücləndirdiyini qeyd ediblər.

Professor Cahangir Məmmədli, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu, Ağdam Rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Rəhimova, jurnalistlər Aynur Camalqızı, Aida Eyvazlı, Zaur Əhməd və başqaları filmin gənc nəslə aşılayacağı vətənpərvərlik hissi barədə danışıblar.

Şəhid polkovnik-leytenantın qardaşı Zabil Orucov "Veysəloğlu" şirkətlər qrupunun təşəbbüsü ilə hazırlanan filmin təqdimatında iştirak edənlərə təşəkkür edib.

"Ruhun həsrəti" filminin ssenari müəllifi Sevinc Orucova, layihənin rəhbərləri Əflatun Amaşov və Bəxtiyar Qaracadır.

# "Su - müharibə maşını"





İyunun 27-də Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının yardımı ilə "Su - taleyi dəyişmiş həyat mənbəyi" layihəsi çərçivəsində dörd dildə (Azərbaycan, ingilis, rus və ərəb) hazırlanmış "Su - müharibə maşını" sənədli filminin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, filmdə işğal altındakı ərazilərdən axan çay və su mənbələrinin çirkləndirilməsi, Sərsəng su anbarının Ermənistanın işğalçı ordusu tərəfindən qarşısının alınması nəticəsində cəbhəxətti rayonlara vurulan ziyan, yaranmış ekoloji böhran və cəbhə xəttinə yaxın yaşayan insanlarımızın üzləşdiyi su problemi əks olunub. Qısametrajlı sənədli film formatında hazırlanan "Su-müharibə maşını" Braziliyanın paytaxtında keçirilən 8-ci Beynəlxalq Su Forumunda xarici ekspert və siyasətçilərdən ibarət auditoriyaya təqdim olunub. Azərbaycanı bu forumda BAMF-ın nümayəndə heyəti təmsil edib.

BAMF-ın sədri Umud Mirzəyev işğal altındakı ərazilərdən ölkəmizə axıb gələn çayların çirkləndirilməsinin, qarşısının kəsilməsinin, eləcə də müxtəlif partladıcı qurğuların axıdılmasının yolverilməz və beynəlxalq hüquqa zidd olduğunu bildirib. Sənədli filmin bu mövzu ilə bağlı müxtəlif dillərdə təqdim edilən ilk təşəbbüs olduğunu deyən U.Mirzəyev bu istiqamətdə işlərin daha çox beynəlxalq auditoriyaya çıxarılmasının əhəmiyyətinə toxunub. Filmdə su məsələləri üzrə beynəlxalq ekspert, "Dünya su müharibələri" kitabının müəllifi Adel Dərvişin, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun müsahibələri yer alıb. Filmdə Ermənistanın Azərbaycana qarşı ekoloji təcavüzü dayandırmasını tələb edən "Azərbaycanın sərhəd bölgələrində yaşayan sakinlərin qəsdən sudan məhrum edilməsi" adlı 2085 saylı qətnamənin tələblərinə dair müddəalar da yer alıb.

Filmdə işğal nəticəsində Azərbaycanın su təsərrüfatına dəyən ziyan haqqında statistikalar qeyd olunur. Ermənistan ərazisindən Azərbaycana müxtəlif sululuqlu 11 çay daxil olur. Bu çayların ümumi su ehtiyatları 2,54 kubmetr təşkil edir. Həmin çayların kimyəvi və radioaktiv maddələrlə, partladıcı maddələrlə, plastik qablarla, kanalizasiya suları ilə çirkləndirilməsi, çay yataqlarının dəyişdirilməsi regionun ekosisteminin deqradasiyasına ciddi təsir göstərib. Tərtər çayı, Xaçın çayı, Qarqar çayı, Tovuz çay, Ağstafa çay vasitəsilə axıdılan yüzlərlə mina və partlamamış hərbi sursat insanların sudan istifadəsinə ciddi təhlükələr yaradıb. Onlarla gənc, yeniyetmə sudan tapdıqları partladıcı qurğulara toxunan an partlayış nəticəsində həlak olub və ya yaralanıb.

Sənədli filmdə qeyd olunduğu kimi, Azərbaycanın işğal olunmuş 20 faiz ərazisində 148,8 min hektar suvarılan torpaq sahəsi, bu torpaqları suvarma suyu ilə təmin edən 22 suvarma sistemi, 6426 kilometr uzunluğunda suvarma kanalı, 330 kilometr uzunluğunda kollektor-drenaj şəbəkəsi, 1429 subartezian quyusu, 539 hidrotexniki qurğu, 220 hidroloji məntəqə, 88 nasos stansiyası, ümumi su tutumu 640 milyon kubmetr olan 10 su anbarı qalıb.

Təqdimatda 40-dan çox media və vətəndaş cəmiyyəti nümayəndələri iştirak edib, mövzu ətrafında fikir mübadiləsi aparılıb. Bu cür mövzulara toxunulmasının və beynəlxalq səviyyədə təqdim olunmasının vacibliyi bir daha vurğulanıb.

*Vüqar Rəhimzadə:*

## Lələtəpə, Günnüt zəfərləri ordumuzun gücünün, qüdrətinin göstəricisidir



Bu il Azərbaycanın ictimai-siyasi tarixində mühüm hadisələrlə yadda qalacaq. Bu mənada Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılmasının 100 illik yubileyini xüsusi olaraq vurğulamaq lazımdır. Bu şərəfli tarix Azərbaycanın dövlətçilik ənənələrinin zənginliyindən xəbər verir. Bu il biz həm də Silahlı Qüvvələrimizin yaradılmasının 100 illik yubileyini qeyd edirik. Məhz 1918-ci ildə, AXC dövründə Azərbaycan Ordusunun yaradılması ilə bağlı qərar verildi. Çox təəssüf ki, AXC-nin 23 ay ömür sürməsi nəticəsində Azərbaycan Milli Ordusunun formalaşması yarımçıq qaldı. 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra ordu ilə bağlı aparılan islahatlar o qədər də ürəkaçan deyildi. Elə bunun nəticəsində torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal edildi. Nizamsız silahlı birləşmələr düşmən işğalının qarşısını ala bilmədi. Hökumət daxilindəki satqınların "səyi" nəticəsində Ermənistan işğalçılıq və soyqırımı siyasətini həyata keçirməkdə idi. 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışı sayəsində işğalın qarşısı alındı, atəşkəs əldə edildi. Ölkədəki xaos və anarxiyaya son qoyuldu, ictimai-siyasi sabitlik yaradıldı. Bütün bunlarla yanaşı, Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoydu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, bu il 100 illik yubileyi qeyd edilən Azərbaycan Ordusu dünya miqyasında öz gücü, maddi-texniki təminatı, nizamı və hazırlığı ilə seçilir. "1993-2003-cü illər ərzində Azərbaycanda ordu quruculuğu sahəsində mühüm işlər görüldü, yeni uğurlar əldə edildi. 2003-cü ildən başlayaraq Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan Ordusu tamamilə yeni tərəqqi dövrünə qədəm qoydu. Ordumuz ən müasir silahlar, hərbi texnika ilə təmin edildi. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclər dəfələrlə artırıldı, mühüm kadr islahatları həyata keçirildi. 2003-cü ildən bu günə qədər hərbi xərclər 15 dəfə artıb. Onlarla hərbi şəhərcik yaradılıb. Hərbçilərin mənzil-məişət məsələləri yüksək səviyyədə öz həllini tapır. Son illərdə 20-dən çox hərbi zavod yaradılıb, 1200 adda hərbi təyinatlı müxtəlif məhsul istehsal olunur. Həyata keçirilən bütün bu tədbirlər nəticəsində Azərbaycan Ordusu dünya miqyasında ən güclü ordular sırasına daxil olub", - deyə V.Rəhimzadə bildirib.

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə keçirilən möhtəşəm hərbi parad bir daha Ordumuzun gücünü dünyaya nümayiş etdirdi: "Paradda 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları və s. nümayiş etdirildi. Təntənəli hərbi paradda çıxış edən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bəyan etdi ki, 2003-cü ildən başlayaraq işlər bütün istiqamətlər üzrə sürətlə gedir, o cümlədən ordu quruculuğu sahəsində: "Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir". Ali Baş Komandanın bu bəyanatı Ordumuzun ruh yüksəkliyini daha da artırır, gələcək zəfərlər, qələbələr üçün stimul yaradır".

Vüqar Rəhimzadə onu da əlavə edib ki, Azərbaycan Ordusu bu gün torpaqlarımızı işğaldan azad etməyə tam hazırdır. "2016-cı ilin Aprel döyüşləri, eyni zamanda, keçən ay Naxçıvanın 1990-cı illərin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağının Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edilməsi bir daha bu reallığı ortaya qoyur. Lələtəpə, Günnüt zəfərləri ordumuzun gücünün, qüdrətinin göstəricisidir. Düşmən işğalından azad edilən bu torpaqlara sancılan Azərbaycan bayrağı gün gələcək Şuşada, Xankəndidə, Laçında dalğalanacaq. O gün uzaqda deyil...", - deyə V.Rəhimzadə vurğulayıb.